**"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, rifahı, sağlamlığı və təhlükəsizliyi dayanır", - deyə bəyan edən Prezident İlham Əliyevin apardığı genişmiqyaslı islahatlar nəticəsində Azərbaycan möhtəşəm tərəqqi və davamlı inkişaf dövrünü yaşayır. Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız hələ 2003-cü ildə keçirilən seçkilərdə bu siyasətin layiqli davamçısı kimi cənab İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə onu özünə yeni Prezident seçdi. Cənab İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti, seçkiqabağı təşviqat dövründə səsləndirdiyi "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" ifadəsi qısa müddətdə ona xalq arasında sonsuz inam və etibar qazandırdı. Elə bu səbəbdən 2008, 2013 və 2018-ci illərdə keçirilən prezident seçkilərində də İlham Əliyev yenidən inamlı qələbə qazandı.**

# Qətiyyətli lider, davamlı inkişaf, yüksələn rifah

Cənab İlham Əliyev özünün 18 illik prezidentliyi dövründə, ilk növbədə, ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi daha da möhkəmləndirmiş, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin etmiş, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olmuşdur. Hazırda tərəddüd etmədən söyləmək olar ki, daxili vətəndaş birliyi, hakimiyyətin yürütdüyü siyasətin geniş əhali tərəfindən dəstəklənməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır. Bununla yanaşı, digər əsas daxili inkişaf parametrləri - makroiqtisadi sabitlik, dinamik inkişaf edən iqtisadiyyat, sosial və mənəvi təminat sisteminin dinamikası, müsbət demoqrafik vəziyyət, miqrasiya və urbanizasiya proseslərinin dövlətin nəzarəti altında saxlanması, dövlət idarəçiliyinin effektivliyi və s. üzrə də Azərbaycan son illərdə region ölkələri içərisində öz yerini möhkəmləndirmişdir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət, formalaşdırdığı səmərəli dövlət idarəçiliyi sayəsində son illərdə Azərbaycanın regional və beynəlxalq nüfuzu getdikcə artmış, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqeləri daha da güclənmişdir. Ölkənin təbii ehtiyatlarından, coğrafi mövqeyindən, maddi, mənəvi və insan resurslarından səmərəli istifadəyə, transmilli nəqliyyat-kommunikasiya və enerji dəhlizləri sahəsində həyata keçirilən uğurlu regional siyasət və düzgün mövqe seçiminə, daxili və xarici siyasətin müstəqillik əmsalına, sosial-iqtisadi inkişafın davamlılıq və dinamiklik göstəricilərinə, gələcək inkişaf potensialına və digər parametrlərinə görə də Azərbaycan özünü tam təmin edən dövlətlər sırasında qərarlaşmışdır.

Hazırda, Azərbaycan Prezidentinin uğurlu siyasəti nəticəsində ölkəmizdə iqtisadiyyatın davamlı və dayanıqlı inkişafı təmin edilib. Ölkəmizdə əlverişli biznes və investisiya mühiti yaradılıb, sahibkarlıq fəaliyyəti, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalı genişlənib. Neft və qeyri-neft sektoru günü-gündən inkişaf edir, ölkəyə xarici və yerli investorların marağı artıb. Ölkə başçısının qarşıda duran hədəflərlə bağlı dediyi sitatı xatırlatmaq istərdim: "Biz bütün işləri ardıcıllıqla edirik və əgər son 17 illik tariximizə nəzər salsaq görərik ki, qarşıya hədəflər qoyulurdu, hədəflər düzgün müəyyən edilirdi, biz bu hədəflərə çatırdıq və ondan sonra qarşımıza yeni hədəfləri qoyurduq. Beləliklə, həm siyasi, həm iqtisadi sahədə dayanıqlı inkişafı təmin etdik, beynəlxalq aləmdə Azərbaycanı çox böyük nüfuza və hörmətə malik olan ölkəyə çevirdik və əsas məsələmizi - ərazi bütövlüyümüzü təmin etdik". Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsi zamanı düşməni diz çökdürdü, torpaqlarımızı işğalçılardan təmizlədi, ərazi bütövlüyümüzü bərpa etdi. Bununla da tarixi ədalət bərqərar oldu.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Vətən müharibəsində əldə etdiyi şanlı qələbə yeni reallıqlar yaratmaqla, həm də geniş geosiyasi məkanda ciddi dəyişikliyə səbəb olub. Qarabağın və Şərqi Zəngəzurun yeni mənzərəsinin müəllifi Azərbaycan Prezidenti İlham Əliyev tarix yazan və qalib lider kimi böyük nüfuza malikdir. Eyni zamanda, İlham Əliyevin spesifik cəhətlərindən biri də onun vətənpərvərliyi və quruculuq məharətidir, siyasi liderliklə yanaşı, zəfər çalmış hərbi lider obrazını da özündə birləşdirir. Bu isə İlham Əliyevin potensialının hüdudsuzluğunun göstəricisidir. Məhz buna görə də o, ən çətin məqamlarda, bəzən başqaları üçün həlli mümkünsüz görünən məsələlərdə belə qətiyyətlə məsuliyyəti öz üzərinə götürür və məqsədinə çatır. İlham Əliyev Prezident və siyasi lider olaraq, dövlətin məsuliyyətini daşımaqla yanaşı, beynəlxalq və qlobal məsələlərdə də ciddi təsir gücünə malikdir. Müasir dünyanın önəmli siyasi liderlərindən biri olan Azərbaycan Prezidenti dəfələrlə milli maraqlar məsələsində güzəştsiz mövqedə olduğunu sübut edib. Bu da onu digər siyasi xadimlərdən fərqləndirən əsas liderlik xüsusiyyətlərindəndir. İlham Əliyevi başqalarından fərqləndirən bir çox üstün keyfiyyətlər var. Siyasətdə sistemlidir, səbirlidir, soyuqqanlıdır, təmkinlidir və dəqiqdir. Onun nəyi nə zaman edəcəyini sadəcə özü bilir. Onun atacağı addımı öncədən müəyyənləşdirmək çətindir. Zəfərlə bitən Vətən müharibəsində də bir daha sübut etdi ki, hər şeyi doğru zamanda, doğru edir.

Dövlət başçısı İlham Əliyevin də xüsusi qeyd etdiyi kimi, hazırda dünyanın nəzəri Qarabağdadır. Ərazi bütövlüyünü bərpa etmiş Azərbaycanın dağıdılmış şəhər və kəndləri necə bərpa edəcəyi, şübhəsiz, dünya dövlətlərinin, bizə dost ölkələrin də marağındadır. Biz Qarabağdayıq və bərpa işlərinə başlamışıq. Tezliklə dünya ictimaiyyəti Qarabağa böyük qayıdışın şahidi olacaq. Prezident İlham Əliyev tərəfindən bütün Qarabağ "yaşıl enerji" zonası elan edilib. Yaşayış məntəqələri "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyaları əsasında bərpa olunur. Ermənistan vaxtı ilə işğal altında saxladığı ərazilərimizdə çox sayda minalar yerləşdirib və həmin minalanmış ərazilərin tam xəritəsini vermək istəmir, lakin buna baxmayaraq, hazırda minaların təmizlənməsi prosesi davam edir, ardınca da bərpa işlərinə start verilir. Ərazilər minalardan təmizləndikcə, infrastrukturun formalaşdırılması həyata keçirilir. Prezident İlham Əliyev Vətən müharibəsindən sonra müxtəlif tədbirlərdə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə yerli ictimaiyyətin nümayəndələri ilə görüşlərində dəfələrlə bəyan edib ki, Qarabağı cənnətə çevirəcəyik. İşğaldan azad olunmuş ərazilərdə görüləcək bütün işlərdə dost ölkələrin şirkətləri də çalışacaq. Artıq bir sıra ölkələrin tikinti təşkilatları Qarabağda şəhərsalmanın planlaşdırılması, zəngin tarixi-memarlıq irsimizin bərpası və yenidənqurma işlərində iştirak etməyə dəvət olunublar.

Bölgədə üç hava limanı olacaq ki, iqtisadiyyatda bu amil özünəməxsus rola malikdir. Qarabağın işğaldan azad olunmasından sonra sürətlə aparılan infrastruktur quruculuğunda vacib hesab olunan hava limanlarıdır. Burada olan aeroportlar nəinki iqtisadi baxımından, həm də geosiyasi və geoiqtisadi baxımdan region ölkələri arasında Azərbaycanın nüfuzunu artıracaq. İlk növbədə, onu qeyd etmək gərəkdir ki, postkonflikt bərpa dövründə hava limanlarının rolu çox böyükdür. Başlıca olan səbəblərdən biri də odur ki, nəqliyyat-logistika baxımından bu bölgəyə çatdırılacaq malların, gediş-gəlişin bərpası, aparılan infrastruktur quruculuq layihələrinin və bərpa prosesinin sürətləndirməsinə gətirib çıxaracaq. Burada turizm, aqroparklar, aqrobiznes, kənd təsərrüfatı, nəqliyyat, logistika və s. layihələr olacaq. Bu ağırlıq mərkəzlərinin birləşməsində Füzuli və Zəngilan hava limanları özünəməxsus əhəmiyyət daşıyacaq. Aeroportların olması qeyd olunanlarla yanaşı, həmçinin Zəngəzur dəhlizinin də əhəmiyyətini artıracaq. Bu dəhlizin bərpası nəinki Azərbaycanın, həmçinin regionun, eləcə də Avrasiyanın bir neçə ölkəsinin maraq dairəsindədir. Zəngəzur dəhlizinin önəmi həm iqtisadi, həm siyasi, həm də tarixi baxımdan çox vacibdir və Azərbaycanın tarixinin əvəzedilməz parçası olaraq qalır. Ölkə başçısının da dəfələrlə vurğuladığı kimi, Zəngəzur dəhlizinin Azərbaycan iqtisadiyyatında çox böyük rolu olacaq. Bu dəhlizin ən vacib nüanslarından biri ondan ibarətdir ki, Zəngəzur dəhlizi nəinki Azərbaycanla Naxçıvan arasındakı nəqliyyat əlaqələrinin şaxələndirməsinə, həmçinin Xəzər və Aralıq dənizindən başlayaraq Cənub Şərqi Asiya və Mərkəzi Asiya olmaqla Avropa arasındakı nəqliyyat-logistika xəttinin mərkəzinə çevriləcək.

Azərbaycanın gələcəkdə daha mühüm uğurlara imza atacağına əminlik yaradan milli sosial-iqtisadi inkişaf modelinin reallaşması nəticəsində əldə olunmuş nailiyyətlərimiz bu gün təkcə ölkə daxilində deyil, bütün dünyada da geniş əks-səda doğurmuşdur. Bu amil bir daha sübut edir ki, Prezident İlham Əliyev ümumbəşəri dəyərlərə əsaslanan özünəməxsus inkişaf kursu ilə, demokratikləşmə, davamlı və dayanıqlı iqtisadi inkişaf, dünya birliyinə sürətli inteqrasiya, ölkənin potensialının dövlətçiliyin daha da möhkəmləndirilməsinə və əhalinin sosial rifahının yüksəldilməsinə yönəldilmiş siyasəti ilə Azərbaycanı dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmək məqsədinə doğru inam və böyük uğurla aparır.

**Yusif ƏLƏKBƏROV,**
**"Prant" şirkətinin prezidenti.**

Respublika .- 2021.- 24 dekabr.- S.8.